AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

İPF – B06

# FƏLSƏFƏ

*fənnindən*

İxtisas – 050202 – Fəlsəfə

(bakalavr təhsil səviyyəsi üzrə)

# P R O Q R A M

BAKI - 2020

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

WPS Office ile Düzenle

İPF – B06

# FƏLSƏFƏ

*fənnindən*

İxtisas – 050202 – Fəlsəfə

(bakalavr təhsil səviyyəsi üzrə)

P R O Q R A M

Bakı Dövlət Universiteti rektorunun

05.06.2020-ci il tarixli R/66 saylı əmri

ilə nəşr hüququ verilmişdir

BAKI - 2020

**Tərtib edənlər:** f.e.d., prof. Ə.B.Məmmədov

f.e.d., prof. Z. C. Hacıyev

f.ü.f.d., dos. K. H. Pənahova

**Redaktor:** f.ü.f.d., dos. K.H.Pənahova

**Rəyçilər:** f.ü.f.d., dos. A. İ.Tağıyev

f.ü.f.d., dos. B.X.Əlizadə

WPS Office ile Düzenle

İzahat vərəqi

Fəlsəfə təbiət, cəmiyyət və təfəkkürün ən ümumi qanunları haqqında elm olmaqla gerçəkliyin mahiyyəti haqqında bilikləri ehtiva edir. Bu kursun keçilməsi mövcud elmi istiqamətlərin dəqiq dərkinə kömək edir, müasir elmi məsələlərin həllinin nəzəri, əxlaqi-etik xüsusiyyətlərinin dərindən anlaşılmasına və gələcək mütəxəssislərə professional sahədə öz bacarıqlarından effektiv istifadə etməyə imkan yaradır.

Fəlsəfə bir dünyagörüşü kimi müstəqil düşüncə tərzi formalaşdıraraq insanın yalnız ətraf aləmi dərk etməsini deyil, həm də özünün bu dünyada mövqeyini anlamasını, insan şəxsiyyətinin formalaşmasını stimullaşdırır. Fəlsəfi bilik insanın həm elmi-nəzəri, həm də praktik fəaliyyəti üçün zəruri əsas təşkil edir.

**Fənnin mənimsənilməsi məqsədləri:**

Fəlsəfə fənninin tədrisində məqsəd tələbələrdə fundamental dünyagörüşü biliklərinə marağı inkişaf etdirmək, elmi idrakın metodoloji əsaslarının dərk olunmasına kömək etmək, tarixi hadisələrin, gerçəkliyin faktlarının fəlsəfi dəyərləndirilməsi tələbatlarını stimullaşdırmaqdır. Tələbələri dünya fəlsəfi fikrinin tarixi təcrübəsi ilə tanış etmək məqsədi ilə fəlsəfə tarixinin əsas mərhələləri və cərəyanları, müasir fəlsəfi mədəniyyətin xarakteri barədə aydın təsəvvür yaratmaqdır. Müxtəlif elm sahələrində müstəqil analitik

WPS Office ile Düzenle

təfəkkür vərdişlərinin formalaşması və təkminləşməsinə, müasir informasiya cəmiyyətinin tendensiya və proseslərinə rasional, fəlsəfi yanaşma prinsiplərinə yiyələnilməsinə kömək etməkdən ibarətdir. Gələcəkdə professional fəaliyyət zamanı dəyərlər oriyentasiyasının formalaşması da fənnin mənimsənilməsi məqsədlərinə daxildir.

**Digər fənlər strukturunda yeri.**

"Fəlsəfə" fənni fəlsəfə ixtisası üzrə bakalavr hazırlığında seçmə fənlər blokuna daxildir . "Fəlsəfə" fənni ilə bilavasitə bağlı olan fənlər bunlardır: "Tarix", "Politologiya", "Sosiologiya", "Multikulturalizm", "Mədəniyyətşünaslıq" və s.

**Fənnin mənimsənilməsi nəticəsində tələbələr bilməlidir:**

-Fəlsəfənin predmetini və funksiyalarını;

-Fəlsəfənin inkişafının tarixi mərhələlərini və bu mərhələlərə məxsus filosofların baxışlarını;

-Müasir fəlsəfədə varlıq probleminə yanaşmaları;

- Ən ümumi əlaqə və inkişaf haqqında təlim olan dialektikanın prinsip, qanun və kateqoriyalarını;

- Şüur və qeyri-şüuri haqqında fəlsəfi konsepsiyaları;

-İdrak prosesinin strukturu, elmi idrakın forma və metodlarını, elmi biliyin müasir fəlsəfi modellərini;

-İnsanda bioloji və sosial tərəflərin vəhdətini;

-Sivilizasiyanın inkişafında elmin rolunu, elm və texnikanın əlaqəsini, bu problemlə bağlı müasir sosial və etik məsələləri;

-Sosial fəlsəfənin problemlərinə müasir yanaşmaları;

-Tarixi prosesin fəlsəfi dərk olunması ənənəsinin mahiyyətini;

-Şəxsiyyətin formalaşması, onun azadlığı və məsuliyyətinin dialektikasını;

- Müasir dövrün qlobal problemlərinə fəlsəfi yanaşmaları.

**Fənnin mənimsənilməsi zamanı tələbələr bacarmalıdır:**

-Gerçəkliyin müxtəlif sahələrinə dair problemlərin fəlsəfi təhlilini;

WPS Office ile Düzenle

- Fəlsəfi dünyagörüşünə əsaslanmaqla müstəqil düşüncə tərzini və əqidəsini formalaşdırmağı;

- Fəlsəfi prinsipləri və qanunları, elmi idrakın forma və metodlarını yiyələndiyi ixtisasa tədbiq etməyi.

**Fənnin mənimsənilməsi zamanı tələbələr səriştələrə yiyələnməlidir:**

-Fəlsəfənin kateqorial aparatından istifadə etmək, elmi diskusiyalar aparmaq qabiliyyətinə;

-Təbiətin, cəmiyyətin və idrakın müxtəlif problemlərinin təhlilinə sistemli yanaşma vərdışlərinə.

"Fəlsəfə" fənninin tədrisi üçün təqdim olunan proqramda mühazirələr 30 saat, məşğələlər 30 saat həcmində müəyyən olunur.

**"Fəlsəfə" kursununmühazirə və məşğələ mövzuları**

| № | Mövzu | Mühazirə | Seminar |
|---|---|---|---|
| 1 | Fəlsəfənin predmeti və funksiyaları | 2 saat | 2 saat |
| 2 | Fəlsəfənin yaranması və inkişafının əsas mərhələləri | 4 saat | 4 saat |
| 3 | Varlıq haqqında fəlsəfi təlim (Ontologiya) | 4 saat | 4 saat |
| 4 | Varlığın universal əlaqələri haqqında təlim (Dialektika) | 4 saat | 4 saat |
| 5 | Fəlsəfədə şüur problemi | 2 saat | 2 saat |
| 6 | İdrak nəzəriyyəsi (Qnoseologiya) | 4 saat | 4 saat |
| 7 | Fəlsəfi antropologiya | 1 saat | 1 saat |
| 8 | Təbiət fəlsəfi dünyagörüşü sistemində | 1 saat | 1 saat |
| 9 | Sosial fəlsəfənin predmeti və funksiyaları | 1 saat | 1 saat |
| 10 | Cəmiyyətin əsas sferaları. | 1 saat | 1 saat |

WPS Office ile Düzenle

| | | | |
|---|---|---|---|
| | Maddi istehsal sferası | | |
| 11 | Cəmiyyətin sosial sferası | 1 saat | 1 saat |
| 12 | Cəmiyyətin siyasi sferası | 1 saat | 1 saat |
| 13 | Cəmiyyətin mənəvi sferası | 2 saat | 2 saat |
| 14 | Tarixi prosesin fəlsəfi təhlili | 1 saat | 1 saat |
| 15 | Mədəniyyət və sivilizasiya. Müasir dövrün qlobal problemləri | 1 saat | 1 saat |
| | CƏMİ: 60 saat | 30 saat | 30 saat |

## "Fəlsəfə" kursu üzrə mühazirə mövzuları (30 saat)

### Birinci mövzu: Fəlsəfənin predmeti və funksiyaları (2 saat)

Fəlsəfə "dünya-insan" münasibətləri sisteminin ən ümumi tərəfləri, varlığın və idrakın ən ümumi prinsipləri və qanunauyğunluqları haqqında elmdir. Fəlsəfənin elm kimi özünəməxsusluğu. Fəlsəfənin dünyagörüşü və metodoloji funksiyaları.

Fəlsəfənin təbiətşünaslıq və humanitar elmlərlə əlaqəsi. Fəlsəfi biliyin tərkib hissələri: ontologiya, qnoseologiya, epistemologiya, sosial fəlsəfə, fəlsəfi antropologiya, aksiologiya.

Dünyagörüşü anlayışı. Dünyagörüşü dünya və burada insanın yeri haqqında ümumiləşdirilmiş təsəvvürlərin biliklərin, baxışların, əqidə və idealların məcmusudur. Dünyagörüşündə dərketmə, qiymətləndirmə, fəaliyyətin qarşılıqlı əlaqəsi. Dünyagörüşünün məzmununda emosional və intellektual səviyyələr. Dünyagörüşünün dünyaduyumu, dünyanı qavrama və dünyanı anlama səviyyələri. Dünyagörüşündə bilik, əqidə, inam və şübhənin vəhdəti.

Dünyagörüşünün fəlsəfəyəqədərki tarixi formaları: mifologiya və din. Fəlsəfi dünyagörüşünün səciyyəvi cəhətləri. Maddi ilə mənəvinin nünasibətinin izahında materializm və idealizm istiqamətləri[1], [2], [3], [4], [5].

### İkinci mövzu:Fəlsəfənin yaranması və inkişafının əsas mərhələləri (4 saat)

#### a) Qədim Şərqdə, Hindistanda və Çində fəlsəfi fikrin meydana gəlməsi

Ilkin fəlsəfi fikirlərin qədim Şərqdə meydana gəlməsi. Qədim Misirdə və Babilistanda fəlsəfə. Yaxın Şərqdə və qədim Azərbaycanda fəlsəfi təsəvvürlər. Zərdüştilik və onun dünyagörüşü əsasları. "Avesta" qədim Şərqin fəlsəfi abidəsi kimi. Triada prinsipi. "Avesta" da siyasi, hüquqi və etik fikirlər.

WPS Office ile Düzenle

Qədim Hindistanda fəlsəfi fikir. Qədim Hind fəlsəfəsinin üç dövrü.

Vedalarda Tanrı, insan və təbiət haqqında fikirlər. Upanişadlar brahmanizmin ideoloji əsasını əsası kimi. Kosmik varlıq atmanın "karma" və "dxarma" qanunları ilə müəyyən edilənliyi. Atman və nirvana. Qədim Hind fəlsəfəsində ortodoksal və qeyri-ortodoksal cərəyanlar. Buddizm təlimində dörd həqiqətin mahiyyəti. Buddizm iztirabın aradan qaldırılması yolları haqqında. Çarvaklar fəlsəfəsində mövcudatın dörd ünsürdən yaranması fikri. İdrak təlimi. Çarvakların etik konsepsiyasında gedonizm.

Caynizmin dualist xarakteri. Asketizmin təbliği. Əsas etik prinsiplər.

Qədim Çin fəlsəfəsinin altı əsas məktəbi: Konfusiçilik, Moizm, Qanun, Daosizm, Naturfəlsəfə, Adlar. Konfusiçilikdə insan,etika, sosial həyat məsələlərinin qoyuluşu. Şəxsiyyətin əxlaqi keyfiyyətləri: xeyirxahlıq, humanizm, bəşərilik. Konfusiçiliyin əsas anlayışları: "qarşılıqlı məhəbbət", "qızıl mərkəz", "insana sevgi".

Daosizm təlimininin mahiyyəti. Cəmiyyətin inkişaf qanunauyğunluğunu, insanın "həyat yolunu", əxlaqını istiqamətləndirən dao anlayışı. Daonun "in" və "yan" vasitəsilə təzahür etməsi.

Moizm məktəbinin əsas ideyaları: ümumi sevgi, müdrikliyə hörmət, mənəvi borc və qarşılıqlı fayda. Moizmdə idrak məsələsinin qoyuluşu.

### b) Antik fəlsəfə

Antik fəlsəfənin yaranmasının tarixi, sosial-siyasi, mədəni şərtləri və əsas mərhələləri. Onun kosmosentrik xarakteri. Sokrata qədərki mərhələdə ontoloji məsələlərin izahının üstünlüyü. Milet məktəbinin nümayəndələri: Fales, Anaksimandr, Anaksimen. Heraklit kortəbii dialektikanın banisi kimi. Atəşin (odun) varlığın əbədi əsası kimi götürülməsi. Dəyişmə və inkişafın səbəbinin cisim və proseslərin xassələrinin öz əksliyinə çevrilməsi ilə əlaqələndirilməsi. Gerçəkliyin mahiyyəti olan "loqos" haqqında təlim.

Eleyaməktəbinin nümayəndələri: Parmenid, Ksenofan, Zenon. Zenonun aporiyaları.

Pifaqor tərəfindən varlığın mahiyyətinin mücərrəd təfəkkürün məhsulu olan ədədlərdə axtarılması. Demokritin atomizm təlimi.

Qədim yunan fəlsəfəsində klassik mərhələ. Sofistlər (Qorgi, Protaqor, Antifont). Biliklərin subyektivliyi haqqında fikirlər. Sokratın insan haqqında düşüncələri. Onun mayevtikası. Dövlətin idarə olunması haqqında fikirləri. Platonun "ideyalar aləmi" və "hisslərlə duyulan aləm". Platon fəlsəfəsində varlıq kateqoriyası. İdraka dair baxışlar. Platonda materiya anlayışı. Bilik

WPS Office ile Düzenle

xatırlama(anamnesis) kimi. Platonun «Dövlət» və «Qanunlar» əsərində dövlət, onun formaları barədə fikirləri. Mükəmməl dövlətin zümrələrə bölünməsi. Ədalət kateqoriyası.

Aristotel fəlsəfəsində materiya (hyule) və forma, imkan və gerçəklik, substansiya kateqoriyaları. Hərəkətin növləri. Aristotel tərəfindən məkan və zaman kateqoriyalarının şərhi. Kateqoriyalar haqqında təlim. İdraka dair fikirləri. Aristotel tərəfindən elmlərin təsnifatı. Aristotelin "Politika", "Afina politikası" əsərlərində siyasi görüşləri. Düzgün və düzgün olmayan dövlət formaları. Ədalət anlayışının həm qanunu, həm də bərabərliyi ifadə etməsi. Xüsusi mülkiyyətin zəruriliyinin əsaslandırılması.

Ellin-Roma fəlsəfəsi. Stoisizm, skeptisizm, eklektisizm, neoplatonizm. Epikurun atomist təlimi, onun yeniliyi. Epikurun idrak nəzəriyyəsi. Atomist təlimin Lukretsi Kar tərəfindən davam etdirilməsi.

Neoplatonizm fəlsəfəsi: Plotin, Yamvlix və Prokl. Plotinin fəlsəfəsində emanasiya nəzəriyyəsi. Proklun hər bir şeyin triada (üçlük) prinsipi əsasında mövcud olması barədə fikirləri: özündə qalma, özün¬dən kənara çıxma, varlığın başqa formasından özünə qayıdış.

### c) Orta əsrlər Qərb fəlsəfəsi

Orta əsrlər Qərb fəlsəfəsinin Xristian dininə və monoteizmə əsaslanması. Onun teosentrik mahiyyəti. Ruh və bədən, etiqad və zəka, mahiyyət və mövcudluq, ölüm və həyat problemlərinin izahı. Yaradıcı qüvvə və ilahi vəhy ideyası. Kreatsionizm.Teodiseya və esxatologiya problemlərinin təhlili. Xristian fəlsəfəsinin əsas inkişaf mərhələləri: patristika və sxolastika. Patristika mərhələsinin apostol, apologetika və yetkin dövrləri. İsgəndəriyyəli Kliment və Tertullian. Avreli Avqustinin ilahi mahiyyətin transendentliyi, ağıl üzərində iradənin, bədən üzərində ruhun birinciliyi ideyaları. Boetsi mövcudluq və mahiyyət haqqında. Sxolastika mərhələsinin dövrləri. Ümumi anlayışların (universalilər) mahiyyətinə dair nominalizm və realizmin mübahisəsi. Tanrının mövcudluğunun ontoloji, kosmoloji və teleoloji arqumentlərlə təsdiqlənməsi. Akvinalı Foma tərəfindən Aristotel təliminin dünyanın yaradılması haqqında xristian ehkamına uyğunlaşdırılması. Onun təlimində Allah bütün varlıqları ideyalar şəklində özündə cəmləşdirən mütləq ruhi substansiya, xalis ruhi forma kimi. Substansional və aksidental formaların əlaqələndirilməsi. U.Okkamın idrak nəzəriyyəsinin iki müddəası: izahın sadəliyi tələbi və yalnız təkcənin real mövcud olması.

### ç) Orta əsrlərdə İslam Şərqində fəlsəfi fikir

Orta əsrlər İslam Şərqi re¬gionunun elmi-mədəni həyatını səciyyələndirən əsas cəhətlər. Şərq peripatetizmi ümummüsəlman mədə¬niy¬yətinin ayrılmaz tərkib hissəsi kimi. Şərq peripatetizminin yarandığı tarixi şərait.Şərq peripatetizminin əsas nümayəndələri: Yəqub əl-Kindi, Əbunəsr əl-Farabi, İbn

WPS Office ile Düzenle

Sina, İbn Rüşd, Əbülhəsən Bəhmənyar, Nəsirəddin Tusi, Əsirəddin Əbhəri və Siracəddin Urməvi. Şərq peripatetiklərinin varlıq nəzəriyyəsi. Emanasiya prosesi. Zəruri varlıq və mümkün varlıq. Materiya və forma, hərəkət və zaman, substansiya və aksidensiya kateqoriyaları. Psixoloji proseslərin nəfslə əlaqələndiril¬məsi. Nəbati, heyvani və insani nəfsin funksiyaları.Şərq peripatetiklərinin qnoseologiyası. İdrakın hissi və əqli mərhələlərinin vəhdəti. Daxili hisslərin beyində lokallaşması. Şərq peripatetik fəlsəfəsində cəmiyyətə dair baxışlar. Əl-Farabinin "Fəzilətli şəhər əhalisinin görüşlərinə dair", N.Tusinin "Əxlaqi-Nasir" əsərlərində fəzilətli və qeyri-fəzilətli dövlətlər və onların xüsusiyyətləri. Dövlətin daxili və xarici siyasəti. Şərq peripatetiklərinin etik görüşləri. İradə azadlığı probleminəmünasibət. Əxlaqi keyfiyyətlərin tərbiyənin məhsulu olması. Xoş¬bəxtlik, fəzilət, həzz, xeyir və şər kate¬qoriyaları.

İslam dini zəminində təşəkkül tapmış sufi fəlsəfəsi. Sufilik düşüncə sistemi, həyat tərzi, tərbiyə üsulu kimi. Kamil insan ideyası. Mistik yolun mərhələləri: şəriət, təriqət, mərifət, hə¬qiqət. Bu mərhələlərin şəxsi möminlik və inamın müxtəlif dərəcələri olan islam, iman və ihsanla əlaqələndirilməsi. Mistik yolun hal və məqamları. Mərifət anlayışının Zun-Nun əl-Misri tərəfindən¬ şərh edilməsi. Fəna və bəqa. Sufizmin əsas nümayəndələri: Həsən əl-Bəsri, Rəbiyyətu əl-Ədəviyyə, Cuneyd əl-Bağdadi, Əbu Yəzid əl-Bistami ,Əl-Hü¬seyn İbn Mənsur əl-Həllac, Əbu Hamid Əl-Qəzali və Fərid əd-Din Məhəmməd Əttar.

Sufizmdə İbn əl-Arabinin "Vəhdət əl- vücud" konsepsiyası. Mövlana Cəlaləddin Ruminin məhəbbət sufiliyi. Bütün mövcudatın Allaha birləşməsi, fanilik və İlahi eşq ideyaları.

Ş.Sührəvərdinin İşraqilik fəlsəfəsi. "İşraq fəlsəfəsi", "İşıq heykəlləri", "İşıqnamə" əsərləri. Mövcudatın əsası kimi götürülən "İşıqlar işığı" həm də bütün mövcudatın müxtəlifliyini aktuallaşdıran mahiyyət kimi. Emanasiya prosesində yaranan ilkin varlıq olan mücərrəd işıq. İşraqilik fəlsəfəsində idrak problemləri. Maddi dünyanın hissi və əqli idrakla, Ali işığın intuitiv idrak vasitəsilə dərk edilməsi.

Hürufilik təlimi. Fəzlullah Nəimi Astrabadi və İmadəddin Nəsimi. Hürufilikdə hərf və say simvolikası. İnkişafın tsiklik xarakteri. Hürufiliyin qnoseoloji təlimi. Etik və estetik baxışlar.

### d) İntibah dövrü fəlsəfəsi

İntibah dövrü fəlsəfəsinin antroposentrik xarakteri. İntibah dövründə sekulyarizasiya prosesi, onun ictimai və mənəvi həyatdakı dəyişikliklərə təsiri. Antik mədəniyyətin və təfəkkür üsulunun yenidən dirçəlməsi. Antik fəlsəfədəki panteizmin bərpası. Fəlsəfi təfəkkürün incəsənətə yönəlməsi və hərtərəfliliyi. Humanizm ideyalarının təbliği. N.Kuzanski tərəfindən sonsuzluğun Allah kimi qəbul edilməsi, gerçəklikdəki cisimlərin isə Allahın modusları kimi qəbul edilməsi fikri.

WPS Office ile Düzenle

Kopernikin heliosentrizmi. C.Brunonun planetlərin günəş ətrafında hərəkət etməsi, Yer və göy aləminin eynicinsliyi barədə fikirləri. Onun panteist təlimi. İdrak nəzəriyyəsi. B.Telezionun fəlsəfəsinin ontoloji və qnoseoloji tərəfləri. Q.Qalileyin ətalət qanununu, nisbilik prinsipini müəyyən etməsi.

İdeal ictimai quruluş layihəsi. T.Morun və T.Kampanellanın utopik fikirləri.

### e) Yeni dövr fəlsəfəsi

Yeni dövr fəlsəfəsinin elmə arxalanması. Təbiətin eksperimental metodlarla öyrənilməsinə başlanılması. XVII əsr Avropa fəlsəfəsində empirizm və rasionalizm.

Empirizmin nümayəndəsi F.Bekon. Onun təcrübi biliyə əsaslanan induktiv metodu kəşf etməsi. Bekonun "ikili həqiqət nəzəriyyəsi" və "kabuslar" təlimi.

T.Hobbsun mexaniki determinizm prinsipi. Dövlətin mənşəyi haqqında təlim. "Təbii hüquq" və "ictimai müqavilə" nəzəriyyəsi.

C.Lokkun sensualizmi. Insan biliklərinin mənbəyi olaraq götürülən təcrübənin xarici və daxili növləri. Birinci və ikinci keyfiyyətlər haqqında təlim.

Rasionalizmin nümayəndəsi R.Dekart. Dekartın dualizmi. Maddi və mənəvi substansiya. "Düşünürəmsə, mövcudam" prinsipi keyfiyyətcə yeni fəlsəfi paradiqma kimi. İdrakda deduktiv metoda üstünlük verilməsi. Anadangəlmə ideyalar nəzəriyyəsi.

Q.Leybnisin çoxlu substansiyalar haqqında konsepsiyası. Monada təlimi. Monadaların üç kateqoriyası. Qeyri-şüuri təsəvvürlər təlimi. Biliklərin iki növü: "zəka həqiqəti" və "fakt həqiqəti".

B.Spinozanın fəlsəfəsində panteizm və hilozoizm. "Azadlıq dərk edilmiş zərurətdir" tezisi.

### ə) Klassik alman fəlsəfəsi

Klassik alman fəlsəfəsinin yarandığı tarixi şərait və təbii–elmi əsaslar. Alman filosoflarının dialektikasının təbiətşünaslıqdakı mühüm kəşflərlə əlaqəsi.

İ.Kantın fəlsəfi yaradıcılığının iki dövrü və xarakterik cəhətləri. İ.Kantın tənqidi metodu. İdrak nəzəriyyəsi. Dərk edən subyektin spesifikliyi biliyin və idrakın başlıca amilidir. Subyektin strukturunda empirik və transendental səviyyələr. Bilik hissiyyat və dərrakənin sintezi kimi. Biliyin zəruriliyi və ümumiliyinin əsaslandırılması. Empirik (aposterior) və aprior bilik. Məkan və zaman subyektin hissiyatının aprior formaları kimi. İdrakda dərrakə və zəka pilləsi. Ümumi ideyaların ziddiyyətli xarakteri. Kant fəlsəfəsində dörd antinomiya. Noumemlər və fenomenlər haqqında təlim. İ.Kantın əxlaq, hüquq və dövlət haqqında fikirləri. Əxlaqın imperativ xarakteri. Kant erkən liberalizmin ideoloqu kimi.

İ.Fixtenin subyektiv idealizmi. Mütləq subyekt-"Mən"dən insan "Mən"inin və "qeyri-Mən"in hasil olması. F.Şellinqin naturfəlsəfəsi.

G.Hegel tərəfindən dialektik təfəkkür üsulunun əsas

WPS Office ile Düzenle

prinsiplərinin işlənilməsi. Təbiət, cəmiyyət və təfəkkürdə hər cür inkişafın mənbəyinin anlayışın özinkişafında olması fikri. Bütün aləmin əsasında dayanan mütləq mənəvi başlanğıc olan "mütləq ideya"nın triada prinsipi- tezis, antitezis,sintez - üzrə inkişafı. Bu prinsipə uyğun olaraq, onun sisteminin üç hissəyə bölünməsi: məntiq, təbiət fəlsəfəsi, ruh fəlsəfəsi. Hegel tərəfindən dialektikanın qanun və kateqoriyalarının sistemləşdirilməsi. Hegelin hüquq fəlsəfəsi. Hüquq ideyasının üç mərhələsi: mücərrəd hüquq, əxlaq və mənəviyyat. Vətəndaş cəmiyyəti və dövlət barədə fikirlər.

L.Feyerbaxın antropoloji materializmi. Insanın ictimai münasibətlərdən kənar xalis təbii varlıq kimi nəzərdən keçirilməsi. Din insan mahiyyətinin özgələşməsinin nəticəsi kimi. Ənənəvi dinin sevgi dini ilə əvəz olunması zərurətinin əsaslandırılması. L.Feyerbaxın idrak nəzəriyyəsində sensualist mövqedən çıxış etməsi.

### f) Marksizm fəlsəfəsi

Marksizm fəlsəfəsinin meydana gəlməsinin ictimai-iqtisadi, təbii-elmi ilkin şərtləri və nəzəri mənbələri. İctimai inkişafın əsasını iqtisadiyyatın, mülkiyyət münasibətlərinin təşkil etməsi fikrinin irəli sürülməsi. Tarixin materialist əsaslandırılması. Tarixin hərəkətverici qüvvəsinin sinfi mübarizə olması. K.Marksın izafi dəyər nəzəriyyəsi. Marksizmin ictimai-iqtisadi formasiya təlimi. Cəmiyyətin inkişafı prosesində mülkiyyət formalarının dəyişilməsi. Marksizmdə siniflərin və dövlətin mənşəyi təlimi. F.Engels dövlətin üç əsas əlaməti haqqında. Sosialist inqilabı nəzəriyyəsi. Proletariat diktaturası təlimi. Dövlətin kommunizm cəmiyyətində "ölməsi", sinifsiz cəmiyyətin bərqərar olması, xüsusi mülkiyyətin ictimai mülkiyyət ilə əvəz olunması barədə fikirlər.

Hegelin idealist dialektikası əsasında materialist dialektikanın işlənməsi. F.Engelsin " Lüdviq Feyerbax və klassik alman fəlsəfəsinin sonu", "Anti-Dürinq", "Təbiətin dialektikası" əsərlərində təbiətşünaslıq sahəsində nailiyyətlərin ümumiləşdirilməsi. Materiyanın fəlsəfi abstraksiya kimi götürülməsi. Hərəkət formalarının təsnifatı. Marksizm ideyalarının V.İ.Lenin tərəfindən davam etdirilməsi və Rusiyanın ictimai-siyasi həyatına tədbiqi.

Müasir dövrdə marksizmin yenidən mənalandırılmasının zəruriliyi.

### g) XIX əsrin II yarısı və XX əsrin əvvəllərində Azərbaycanda maarifçilik fəlsəfəsi

Azərbaycan maarifçilik fəlsəfəsinin yaranması şəraiti və spesifik cəhətləri. Azərbaycan maarifçiliyinin inkişaf mərhələləri: erkən və klassik maarifçilik. Erkən maarçiliyin nümayəndəsi A.Bakıxanovun fəaliyyəti və əsərləri. Varlığın vacib və mümkün qisimlərə bölünməsi,

WPS Office ile Düzenle

maddi aləmin vəhdətdə nəzərdən keçirilməsi. Onun idrak təlimi. A.Bakıxanovun etik görüşləri. Müsbət əxlaqi keyfiyyətlərin meyarının ədalət və insafla əlaqələndirilməsi.

Klassik maarifçiliyin nümayəndəsi M.F.Axundov. Kainatın maddiliyi və yaradılmazlığı barədə fikirlər. Məkan və zaman maddi varlığın atributu kimi. Mütəfəkkirin dinə münasibəti. M.F.Axundovun əsərlərində monarxiya idarə üsulunun tənqidi, insan azadlığı və hüquqları barədə fikirləri.

H.B.Zərdabi darvinst alim kimi. Onun dünyanın maddi vəhdəti, sonsuzluğu, kainatda əbədi hərəkətin mövcudluğu haqqında fikirləri. Sosial-siyasi görüşləri.

M.A.Şahtaxtlının vahid dövlət tərkibində ayrı-ayrı millətlərin azad özünüidarə hüququnu müdafiə etməsi. Tərəqqi anlayışına münasibət.

XIX əsrin sonu və XX əsrin əvvəllərində C.Məmmədquluzadənin, M.Ə.Sabirin, Ö.F.Nemanzadənin, Ü.Hacıbəyovun maarifçilik ideyaları, N.Nərimanovun inqilabi-sosial demokratik mövqeyi.

Azərbaycan ictimai fikrində milli istiqlal məfkurəsinin möhkəmlənməsi. M.Ə.Rəsulzadə tərəfindən Azərbaycanın müstəqilliyi ideyası uğrunda mübarizə. Müstəmləkəçilik siyasətinin tənqidi.

"Türkləşmək, islamlaşmaq, avropalaşmaq" şüarının müəllifi Ə.Hüseynzadənin türkçülük, türk birliyi ideyaları, nicat yolunun maarif, ittihad və hürriyyətdə görməsi. Ə.Ağayevin "milli sülh", İslam birliyi ideyaları. Azadlıq demokratiyanın əsas əlaməti kimi.

### ğ) Müasir dövrdə Qərbi Avropa fəlsəfi fikrinin əsas istiqamətləri

XIX əsrin sonu - XX əsrin əvvəllərində ənənəvi-klassik fəlsəfədən uzaqlaşma meylləri. Pozitivizm fəlsəfəsi. Pozivitizmin yaradıcısı O.Kontun "Pozitiv fəlsəfə kursu" əsəri. Pozitivizmin tarixi formaları. Empiriokritisizm mərhələsi. Əsas nümayəndələri: E.Max, R.Avenarius. Neopozitivizm mərhələsi. Əsas nümayəndələri: M.Şlik, R.Karnap, Q.Reyxenbax, L.Vitqenşteyn. Verifikasiya prinsipi. Postpozivitizm mərhələsi. Əsas nümayəndələri: K.Popper, İ.Lakatos, T.Kun, S.Tulmin, P.Feyerabend. Elmi biliyin təhlili və dil problemləri. Elmi biliyin inkişafı və dinamikası. K.Popperin falsifikasiya prinsipi. T.Kunun paradiqmalar nəzəriyyəsi.

Strukturalizm cərəyanı. Əsas nümayəndələri: N.Levi-Stross, M.Fuko, C.Lakan. Dil strukturalizm üçün nəzəri təhlil vasitəsi kimi. Strukturalizm müasir elmdə idrak metodologiyası kimi.

Praqmatizm cərəyanı. Əsas nümayəndələri: U.Cems, Ç.S.Pirs, C.Dyui, F.Şiller. Fəlsəfənin real həyatla əlaqələndirilməsi. İdrak və həqiqət anlayışlarına praqmatizmdə münasibət.

Fəlsəfədə irrasionalist istiqamətlərin yaranması. Həyat fəlsəfəsi, ekzistensializm və hermenevtika. Həyat fəlsəfəsinin üç əsas məktəbi: Akademik həyat fəlsəfəsi, Yaradıcı təkamül fəlsəfəsi, İradə fəlsəfəsi.

WPS Office ile Düzenle

Ekzistensializmdə insanın mənəvi aləmi, şəxsiyyətin müasir dünyada taleyi, fərdin cəmiyyətdən özgələşməsi problemlərinin qoyuluşu. İnsanın mövcudluğu və mahiyyəti. İnsan azadlığı problemi. Alman ekzistensializminin baniləri K.Yaspers, M.Haydegger. Fransız ekzistensializminin baniləri U.R.Sartr, A.Kamyu, Q.Marsel.

Hermenevtikanın F.Şleyermaxer və V.Diltey tərəfindən əsaslandırılması. Hermenevtika humanitar biliklərin idrak metodu kimi. Anlam kateqoriyası.

Müasir dini-fəlsəfi cərəyan olan neotomizmin varlıq və idrak nəzəriyyəsi. Əsası E.Qüsserl tərəfindən qoyulan fenomenologiya cərəyanı xalis şüur haqqında elm kimi. Fenomenoloji reduksiya metodu [1], [2], [3], [4], [7], [12], [13], [15], [8].

## Üçüncü mövzu: Varlıq haqqında fəlsəfi təlim (Ontologiya) (4 saat)

Ontologiya varlıq haqqında təlimdir. Varlığın naturfəlsəfi anlamı və onun müasir elmi nəzəriyyəsi. Varlıq haqqında müasir fəlsəfi axtarışlar və onların əhəmiyyəti. Varlığın fəlsəfi anlamının əsas səpkiləri. Təbiətin varlığı ilə insan cəmiyyətinin varlığı arasında münasibət. Varlığın geniş və məhdud anlamı. Varlıq, gerçəklik və reallıq anlayışlarının münasibəti. Gerçəklik keçmişdə və hazırda mövcud olan və gələcəkdə mövcud olacaq hadisə və proseslərin məcmusu kimi. Obyektiv və subyektiv reallıq, onların münasibəti. Varlıq obyektiv və subyektiv reallığın vəhdəti kimi.

Varlığın formaları anlayışı. Əşya, proses və hadisələrin varlığı. Təbiətdəki ayrı-ayrı əşya və proseslərin varlığı. Bütöv bir tam kimi götürülən təbiətin varlığı. Təbiətin ayrı-ayrı hallarının varlığı. “İkinci təbiət” varlığının mahiyyəti və səciyyəvi cəhətləri. Insan varlığı və onun ikili təbiəti. İnsanın cisimlər aləmində varlığı. Spesifik insan varlığı. Mənəvi varlıq. Subyektivləşdirilmiş mənəvi varlıq: mahiyyəti, səciyyəvi cəhətləri və səviyyələri. Obyektivləşdirilmiş mənəvi varlıq. Mənəvi varlıq növlərinin vəhdəti. Varlığın sosial forması və səciyyəvi cəhətləri. Varlığın səviyyələri.

Materiya fəlsəfənin fundamental kateqoriyası kimi. Materiyanın elmi tərifi və onun metodoloji əhəmiyyəti. Materiya anlayışının ontoloji və qnoseoloji aspektləri. Materiya obyektiv reallıq və substansiyanın vəhdəti kimi. Varlıq və materiya anlayışlarının vəhdəti. Materiya varlıq anlayışının konkretləşmiş forması kimi. Materiyaya dünya binasının “ilk kərpicikləri” kimi yanaşılmasının əsassızlığı. Materiyanın metafizikcəsinə anlaşılmasının məhdudluğu. Materiyanın sonsuzluğu və tükənməzliyi prinsipi. Substansiya anlayışı və onun materiya ilə münasibəti. Müasir fəlsəfədə substansiya anlayışının mənalandırılması.

Müasir elm materiyanın quruluşu və struktur

WPS Office ile Düzenle

səviyyələri haqqında. Müasir elmdə materiyanın təşkil səviyyələrinin təsnifatı. Cansız təbiətdə və üzvi aləmdə materiya təşkilinin əsas səviyyələri.

Materiyanın konkret təzahürləri: maddə və sahə. Maddənin halları. Elementar hissəciklər və "fiziki vakuum". Atom nüvəsi. Atomun nəzəri modelləri: Tomson modeli, Rezerford modeli və Bor modeli. Müasir elm elementar hissəciklərin korpuskulyar – dalğa dualizmi haqqında. Müasir elm fiziki sahənin müxtəlif formaları haqqında. "Kvarklar" və "Virtual hissəciklər". Sosial həyat materiya təşkilinin ən yüksək mərhələsi kimi. Sosial həyatın əsas struktur səviyyələri: fərd, ailə, kollektiv, sosial qrup, sinif, millət, dövlət, cəmiyyət.

Hərəkət konsepsiyası.Hərəkət materiyanın mövcudluq üsulu kimi. Materiya və hərəkətin əlaqəsi. Hərəkət proses olub, saxlanma ilə dəyişmənin vəhdətidir. Hərəkətin mütləq və relyativist anlamının nöqsanlılığı. Hərəkətin əsas tipləri. Hərəkət formalarının Engels təsnifatı. Hərəkət formalarının dialektik əlaqəsi və özünəməxsusluğu. Hərəkət formalarının mexanisist və reduksionist anlaşılmasının məhdudluğu. Müasir elmin hərəkət formalarına gətirdiyi yeniliklər. Materiya və hərəkətin ayrılmazlığı prinsipi və onun təbii-elmi əsasları.

Məkan və zaman varlığın obyektiv real formaları kimi. Məkan və zamanın substansional və relyasion konsepsiyaları. Məkan və zamanın fəlsəfi xarakteristikası. Nisbilik nəzəriyyəsi məkan, zaman və hərəkət edən materiyanın vəhdəti haqqında. Məkan və zamanın ölçülülüyü problemi. Çoxölçülü məkan ideyasının mahiyyəti. Məkanın bircinsliliyi, izotropluğu və anizotropluğu anlayışı. Zaman birölçülü və geriyədönməzdir.

Cansız təbiətdə məkan və zaman formalarının keyfiyyət müxtəlifliyi. Bioloji məkan və zamanın xüsusiyyətləri. Sosial məkan və zaman [1], [3], [4], [11].

## Dördüncü mövzu: Varlığın universial əlaqələri haqqında təlim (Dialektika)

## (4 saat)

Dialektika varlığın universal əlaqələri, hərəkəti və inkişafı haqqında təlimdir. Dialektika və onun alternativləri. Dialektikanın səviyyələri: əlaqə səviyyəsi, hərəkət səviyyəsi və inkişaf səviyyəsi. Dialektikanın elmi tərəfi və mənası. Obyektiv və subyektiv dialektika. Dialektikanın prinsipləri. Universal əlaqə anlayışı. Əlaqələrin təsnifatı.

Inkişaf anlayışı. Inkişafın müxtəlif modelləri. Proqressiv (tərəqqi), neytral və reqressiv (tənəzzül)

WPS Office ile Düzenle

inkişafı.

Qanun anlayışı. Qanunların əlamətləri. Qanunların təsnifatı. Xüsusi, ümumi və ən ümumi qanunlar. Təbiət və cəmiyyət qanunları. Dinamik və statistik (ehtimali) qanunlar. Dialektikanın əsas qanunları. Əksliklərin və ziddiyyətlərin vəhdəti qanunu. Eyniyyət, fərq, əkslik, ziddiyyət anlayışları. Ziddiyyətlərin növləri. Dialektik və formal (məntiqi) ziddiyyətlər. Dialektik ziddiyyətlərin həlli inkişafın mənbəyi və hərəkətverici qüvvəsi kimi.

Kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keşməsi qanunu. Keyfiyyət, əlamət və xassə. Keyfiyyətin ikili təyini: a) keyfiyyət predmetin daxili müəyyənliyi kimi; b) keyfiyyət predmetin mühüm xassələrinin məcmusu kimi. Predmetlərin keyfiyyət çoxcəhətliliyi.

Kəmiyyət anlayışı. Kəmiyyətin məna çalarları: a) kəmiyyət predmetin qeyri-müəyyənliyi kimi; b) kəmiyyət predmetin xarici müəyyənliyi kimi; c) kəmiyyət predmetin daxili müəyyənliyi kimi.

Ölçü anlayışı. Sıcrayış anlayışı. Sıcrayış, təkamül və inqilab. Inkişaf kəmiyyət dəyişikliklərinin keyfiyyət dəyişikliklərinə keçməsi prosesi kimi.

İnkarı inkar (dialektik sintez) qanunu. Qanunun idraki funksiyası. Inkar anlayışı. Inkarın tipləri və növləri. Destruktiv və konstruktiv inkar. Konstruktiv inkar inkişafın zəruri, immonent səpkisi, inkişafda yeni ilə köhnənin əlaqə momentidir. Konstruktiv inkarın mütləq və nisbiliyi. Inkişafda varislik əlaqəsi. Nihilizmin əsassızlığı və tənqidi. Varislik tərəqqi və inkişafın yüksələn xətt üzrə baş verməsinin ifadəsidir. Hegelin “Triada” prinsipi və inkişafda nisbi təkrarlanma. Nisbi yüksəlmə və nisbi təkrarlanma inkişafın ümumi istiqamətinin vəhdət təşkil edən tərəfləri kimi.

Fəlsəfə tarixində inkişafın istiqaməti haqqında fəlsəfi konsepsiyalar. Inkişafın tsiklik xarakteri və spiralvari forması.

Dialektikanın kateqoriyaları. Fəlsəfi kateqoriyalar varlığın quruluşunu və determinizm əlaqələrini ifadə edən əsas məntiqi anlayışlar və idrakın inkişaf pillələri kimi.

